Mən, şərik olmağa möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə bir başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm

Əbu Hureyradan - Allah ondan razı olsun - rəvayət edilir ki, Peyğəmbər - səlləllahu aleyhi va səlləm - belə demişdir: "Allah - Təbarakə va Təalə - buyurmuşdur: "Mən, şərik olmağa möhtac deyiləm. Kim bir əməl edərsə və etdiyi əməldə bir başqasını Mənə şərik qoşarsa, Mən onu və şərik qoşduğunu tərk edərəm".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər - səlləllahu aleyhi va səlləm - bu hədisdə Uca Allahın şəriklərə ehtiyacı olmadığını, həmçinin əgər insan bir yaxşı əməl edərsə və etdiyi əməli həm Allah, həm də Allahdan qeyrisi üçün edərsə, həmin əməlin ondan qəbul olmayacağını xəbər vermişdir. Beləliklə əməli ixlasla Uca Allah üçün etmək lazımdır. Çünki, Uca Allah yalnız Onun üçün edilən əməli qəbul edir.

http://sunnah.global/hadeeth/az/show/3342